# MƏMMƏDOV ELŞAD RAMİZ OĞLU



Məmmədov Elşad Ramiz oğlu 14 fevral 1975-ci ildə Xanlar rayonunun (indiki Göygöl) Haçaqaya kəndində dünyaya göz açmışdır. 1990-cı ildə kənd natamam orta məktəbini bitirdikdən sonra 99 saylı Xanlar rayon texniki-peşə məktəbində təhsilini davam etdirmişdir. 1993-cü ilin avqust ayında Xanlar rayon Hərbi Komissarlığı tərəfindən Milli Orduya çağırılaraq 6 ay hərbi təlim keçir. Sonra isə Qarabağa - döyüş bölgələrinə yollanır. Tərtər bölgəsində erməni işğalçılarına qarşı cəsurluqla döyüşən Elşad daha sonra Ağdərə ərazisinin yağı düşməndən təmizlənməsi istiqamətində gedən qanlı döyüşlərdə qəhrəmanlıq nümayiş etdirmişdi. E.Məmmədov 17 mart 1995-ci ildə dövlət çevrilişinə cəhdin qarşısının alınmasında iştirak edərkən qarşı tərəfin gülləsinə tuş gələrək qəhrəmancasına həlak olub. Xanlar rayonunun (indiki Göygöl) Qırıqlı kəndində dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə Məmmədov Elşad Ramiz oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. Haçaqaya kənd natamam orta məktəbi onun adını daşıyır. Daşkəsən yolu üstündə büstü qoyulmuşdur.